# Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsi

*Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin əməkdaşları* 2019-cu ildə 9 kitab, 46 məcmuə, 46 qəzet məqaləsi, 6 tezis, o cümlədən xaricdə 10 məqalə, 2 tezis, 1 tərtibat işi, 23 bədii əsər yerinə yetirib.

2018-ci ildə "Azərbaycan ədəbiyyatı: mərhələləri, klassikləri, abidələri" problemi, "Sabir Rüstəmxanlının həyat və yaradıcılığı" və "Azərbaycan ədəbiyyatında modernləşmə təmayülləri" mövzuları üzrə tədqiqat aparılıb.

Redaksiya heyəti İ.Həbibbəyli, T.Əlişanoğlu, Ə.Əsgərli, E.Akimova, A.Bağırlı və L.Həsənovadan ibarət olan "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" kitabı (Bakı, "Elm və təhsil"; 2018, 400 s.) akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ümumi redaktəsi ilə çapa hazırlanıb. Kitabın məsul redaktoru AMEA-nın müxbir üzvü T.Əlişanoğlu, rəyçiləri prof. M.Qasımlı və prof. M.Əliyevdir. Monoqrafiyada ilk dəfə olaraq Ulu Öndərin ədəbiyyatda bədii obrazının yaradılmasından söz açılıb. Kitabda sənətkatların və yeni ədəbi nəsillərin müxtəlif ədəbi janrlarında yaradıcılıq axtarışları geniş tədqiq və təhlil olunub, elmi-nəzəri ümumiləşmələr aparılıb. "Monoqrafiyada həmçinin müasir şəraitdə ədəbiyyatda Heydər Əliyev ideallarının yaşadılmasının davam etdirilməsi və bədii obrazın yeni təfəkkür əsasında canlandırılması məsələsinə də işıq salınıb".

Bu ildə *AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu* "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun beş ili İsa Həbibbəyli ilə" (Bakı, "Elm və Təhsil", 2018, 128 s.), f.ü.f.d. Lalə Həsənova "Müasir ədəbi paradiqma: icmallar, məqalələr, düşüncələr" (Bakı, Avropa, 2018, 274 s.) kitablarını çap etdirib.

T.Əlişanoğlu "kitabda akademik İsa Həbibbəylinin AMEA Nizami gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru kimi son beş ildəki ədəbi-ictimai fəaliyyətindən, institutda həyata keçirilən elmi-təşkilati islahatlardan, ədəbiyyatşünaslıq elminin son nailiyyətlərindən, habelə, akademikin ədəbiyyat tarixçiliyi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid sahələrində əldə etdiyi böyük yaradıcılıq uğurlarından söz açılıb". Onun 2016-2017-ci illər üçün "Tənqid.net" jurnalının 12-ci sayı çap olunub.

*F.ü.f.d. Lalə Həsənovanın* elmi redaktoru AMEA-nın müxbir üzvü T.Mustafayev, rəyçiləri dos. Nərgiz Cabbarlı və f.ü.f.d. Elnarə Qaragözova olan "Çağdaş ədəbi paradiqma: icmallar, məqalələr, düşüncələr" kitabında "son illərin ədəbi prosesi haqqında icmal-oçerklər, məqalələr toplanıb. "İcmallar", "Müasir nəsr haqqında məqalələr", "Bədii-sənədli nəsr", "Çağdaş ədəbiyyatda Qarabağ mövzusu", "Müasir ədəbi proses haqqında düşüncələr" və s. bölmələrdə müasir nəsr, dramaturgiya və poeziyanın inkişaf meyilləri əhatə olunub. Kitab filoloqlar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulub".

*Fəlsəfə elmləri doktoru, prof. Rahid Uluselin* 2018-ci ildə “Narın düşüncələr” (Bakı, “Şərq-Qərb”, 2018, 2014 s.) kitabı Azərbaycan və rus dillərində nəşr edilib. Redaktorları Azər Turan və Nərgiz Cabbarlı olan kitaba müəllifin “Sayrışlar” adlandırdığı aforizmləri və lakonizmləri daxil edilib.

Birinci və ikinci bölmələr təbiət və kainat, üçüncü və dördüncü bölmələr insan və məhəbbət, beşinci bölmə siyasət və diplomatiya, altıncı bölmə insan və tarix, yeddinci bölmə təfəkkür və idrak, doqquzuncu və onuncu bölmələr isə təbiət, cəmiyyət və insan təfəkkürü haqqında müdrik kəlamlardır.

*F.e.d., prof. Salidə Şərifovanın* “Dionisin qələbəsi” adlı hekayələr toplusunun (Bakı, “Elm və təhsil”, 2018, 200 s.) ön söz müəllifi xalq yazıçısı Mövlud Süleymanlı, redaktoru isə Azərbaycan və Rusiya Yazıçılar Birliyinin üzvü Səidə Əliyevadır. Kitabda S.Şəmmədqızının müxtəlif illərdə qələmə aldığı hekayələri toplanıb. Müəllifin “Klassiklər və müasirlər söz müstəvisində” kitabının (Bakı, “Elm və təhsil”, 2018, 568 s.) rəyçiləri Əməkdar elm xadimi Məhərrəm Qasımlı və AMEA-nın müxbir üzvü Tehran Əlişanoğludur. Topluda ədəbiyyatşünaslıq, habelə, müasir nəsr və poeziyanı əhatə edən elmi-tənqidi məqaləri toplanıb.

2018-ci ildə şöbə əməkdaşlarının elmi məcmuələrdə 46-dan artıq məqaləsi, elmi-kütləvi saytlarda 71 məqaləsi, cəmi 117 məqaləsi əksini tapıb.

Şöbə əməkdaşları il ərzində Azərbaycan, Türkiyə və Rusiyada keçirilən beynəlxalq konfrans, elmi tədbir və müşavirələrdə 26 dəfə iştirakçı olub, məruzələri məcmuələrdə çap olunub.

*AMEA-nın müxbir üzvü Tehran Mustafayev* 16-24 noyabr 2018-ci ildə keçirilən beynəlxalq “Fizika və lirika” konfransında – Şamaxı Rəsədxanasında (17 noyabr) və Dubna şəhərində (23 noyabr) “Elmin inkişafı kontekstində bədii təfəkkürün üfiqləri” mövzusunda məruzə edib.

Şöbə əməkdaşları Azərbaycanda, Türkiyədə, Rusiyada keçirilən beynəlxalq konfrans, elmi tədbir və müşavirələrdə 26 dəfə iştirakçı olub, sertifikatlar qazanıb, məruzələri məcmuələrdə dərc edilib.

*Baş elmi işçi, f.e.d., Salidə Şərifova* 8 məruzə («Один пояс - один путь: перспективы исследования и распространения современной литературы Китая.» // Международный семинар «Гуманитарное сотрудничество и взаимодействие в области индустрии культуры в рамках инициативы «Пояс и путь».» 29.10.2018- 09.11.2018, Китай, Ланфан;

Глобализация и методологические проблемы литературоведения “Глобаллашув муаммоларининг бадиий талқини ва замондош образи” конференция материаллари. 2-китоб. [Матн]: 9-10 август 2018 й. / нашрга тайёрловчилар: Г. Сатторова [ва бошқ.]. - Тошкент: Муҳаррир нашриёти. 2018. – 400 б. Daşkənd, 2018, səh. 82-89;

Occurrence of Postmodern Novels and Genre Features // 24th World Congress of Philosophy. Beijing, 13 – 20 August 2018.

“Romanın publisistik janrlarla qarışıqlığı” // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Cümhuriyyət ideologiyası kontekstində filologiya elmi respublika elmi konfransının materialları (6 aprel 2018-ci il, səh. 37-42) ;

“Evtanaziya” İlqar Fəhminin kinoromanının janr xüsusiyyətləri” // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” IX beynəlxalq elmi konfransın materialları (3-4 May 2018-ci il. Bakı 2018, səh. 582-584);

“Audioromanda, kinoromanda və hipertekstdə janr qarışıqlığı” //Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri - 2018” beynəlxalq konfransın materialları (14-15 May 2018-ci il, səh. 381-382);

“Azərbaycan ədəbiyyatında kreollaşmış roman” // IV Uluslararası Türk Kültür Coğrafyasında Eğitim ve Sosyal Bilimler Sempozyumu, Azerbaycan Halk Cumhuriyeti’nin ve Kafkas İslam Ordusunun Kuruluşunun 100 Yılı nedeniyle 27-30 Haziran 2018-ci il. Bakı;

“Ülvi Bünyadzadə obrazının Azərbaycan vətənpərvərlik lirikasında əhəmiyyəti və özəllikləri” // “Ülvi Bünyadzadə: şəxsiyyəti və ədəbi irsi” mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, 2018. səh. 112-121);

*Böyük elmi işçi Mənzər Hüseynova* 1 məruzə (“Vidadi Babanlının yaradıcılığında insan taleləri” – BSU. Azərbaycanşünaslığın aktual problemləri. IX Beynəlxalq elmi konfransı. Bakı, 3-4 may 2018),

*Baş elmi işçi, f.ü.f.d., dosent Mərziyyə Nəcəfova* 10 məruzə (“Xocalı soyqırımı: qəlblərdə, duyğularda, ədəbiyyatda”. Ədəbiyyat institutunda məruzə. 26 fevral, 2018.

“Türk poeziyasında Antalya konusu”. 1-3 mart , Akdeniz unversetesinde Antalya simpozyumu, 2018, səh. 982- 989

“Kağızmanlı Hıfzı yaratıcılığında ayrılık ve hüzün”, 2 Ölümünün 100 Yılında Kağızmanlı Hıfzı Uluslararası sempozyumu” Özet səh. 91-93, 2018.

“Naxçıvan şairlərinin müstəqillik dövrü poeziyası”. “Azərbaycanşünaslığın aktual problemləri, IX Beynəlxalq elmi konfransın materialları. 3-4 may,2018 s. 399-402.

“Müstəqillik dövrü poeziyasında marşlar”, “Turkcess” 28-30 iyun, Bakı Azərbaycan.

Bican Veysel Yıldız eserlerinin iç ve dış yapı özellikleri. “5. Uluslararası çocuk ve genclik edebiyyatı simpozyumu” 19-21 ekim, 2018.

“Azerbaycanda çocuk edebiyyatı araştırmaçısı Aynur Halilovanın Yaratıçılığının özellikleri”, “5. Uluslararası çocuk ve genclik edebiyatı simpozyumu” 29-21 ekim, 2018.

“Poeziyada şəhidlik- Şəhid Ülvinin poeziyası”,”Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik- Ülvi Bünyadzadə:şəxsiyyəti və ədəbi irsi” adlı Beynəlxalq Konfransın materialları, Bakı, Elm, və təhsil, 106-116, 2018, 490 səh.

“Türk şiirinde Xocalı faciesi ve ermeni vandalizmi”, “Türk tarih kurumu konqresi”, 1-5 ekim 2018.

“Türk şiirinde Diyarbakır konusu”, “Diyarbakır ekonumisi, diyarbakır tarihi konqresi”. 26-28 ekim, 2018),

*Aparıcı elmi işçi, f.ü.f.d., dosent Lalə Həsənova* 3 məruzə (“Bioqrafik nəsrdə müharibə gerçəkliklərinin əksi” (Mustafa Çəmənli “Fred Asif”, “Mübariz”) . “Elm və Təhsil” mərkəzi “Təfəkkür” universiteti. Ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş “Nailiyyətlərimizin əsası Heydər Əliyevin islahatları ilə bağlıdır” mövzusunda Respublika elmi-praktik konfransın proqramı. Bakı, 2018.

“Natiq Rəsulzadənin “Qolfstrim” romanının janr –üslub xüsusiyyətləri” // Ümummilii Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri. İX Beynəlxalq konfransın materialları, 3-4 may 2018-ci il, Bakı. s. 220-222

“Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında roman-memuarlar” // IV. Uluslararası Türk Kültür Coğrafyasında Eğitim ve Sosyal Bilimler Sempozyumu, Azerbaycan Halk Cumhuriyeti’nin ve Kafkas İslam Ordusunun Kuruluşunun 100 Yılı nedeniyle 27-30 Haziran, 2018, Bakü),

*Aparıcı elmi işçi, f.ü.f.d., dosent Bahar Məmmədova (Bərdəli)* 2 məruzə (“Nurəngiz Günün “Ağ qanadlar” poemasında gerçəkliyin əksi”. Bakı Slavyan Universiteti. Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş Beynəlxalq Konfrans. 3-4 may. Bakı. 2018;

““Qarabağ” mövzusu Sabir Rüstəmxanlının poeziyasında”. Azərbaycan Universitetinin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş Beynəlxalq Konfrans. 14-15 may. Bakı. 2018) edib.

2018-ci ildə *T.Mustafayev* AMEA-nın RH-nin fəxri diplomu, *M.Nəcəfova* “Ən yaxşı vətənpərvər alim” qızıl medalı, *R.Ulusel* “İlin alimi” diplomuna layiq görülüb. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illiyi münasibətilə dos. *Q.Bayramov* Həmkarlar İttifaqının mükafatı, *R.Xəlilov* və *X.Fərziyev* dosent elmi adlarını alıb.

Şöbənin əməkdaşı *Mərziyyə Nəcəfova* “Müasir Azərbaycan poeziyasında Qarabağ” mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Şöbə əməkdaşları bütövlükdə 107 iş, yəni 9 kitab, 6 tezis, 92 məqalə, o cümlədən xaricdə 10 məqalə, 2 tezis çap etdirib.

Hazırladı:

**Əlizadə Əsgərli**

AMEA Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutunun elmi işlər üzrə
direktor müavini, filologiya elmləri doktoru, professor

**Tehran Əlişanoğlu**
Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı
şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü